“PAŞA Bank” ASC-nin
Fərdi Bankçılıq Departamentinin Direktoru
tərəfindən təsdiq edilmişdir
Tarix: “12” aprel 2021-ci il

__________________________________________

Kamran Heydərov

# “PAŞA Bank” ASC-nin kəşbək əməkhaqqı kart məhsulu üzrə kəşbək hesablama təlimatı

## 1. Ümumi müddəalar

1.1. PAŞA Bank ASC-nin təqdim etdiyi kəşbək əməkhaqqı kartı bankdaxili qaydalar üzrə əməkhaqqı kartına malik olan fiziki şəxslər (bundan sonra Müştəri adlanacaq; PAŞA Bankın işçiləri daxil olmaqla) arasında nağdsız əməliyyatların artırılması məqsədi ilə nağdsız ödənişlərdə kəşbək təqdim edən PAŞA Bankın (bundan sonra Bank adlanacaq) brend məhsuludur.

1.2. Bu təlimat Bankın rəsmi səhifəsində yerləşdirilərək mütəmadi olaraq yenilənəcəkdir və brend məhsulun təklif etdiyi bonuslardan istifadə edəcək müştəri qaydalarla tanış olub onları qəbul etmiş hesab edilir.

## 2. Əsas anlayışlar

- Kəşbək əmək haqqı kartı – Bu məhsul üzrə Bank tərəfindən çap olunmuş xüsusi bonus təklifli kart. Kəşbək əmək haqqı kartı ilə nağdsız ödənişlər həyata keçdikdə hər əməliyyat (Əlavə 1-də göstərilmiş MCC kodlar üzrə əməliyyatlar istisna) üzrə Bank tərəfindən kəşbək bonusları hesablanır.
- Kəşbək – Bankın nağdsız ödənişlərində geri qaytarılan bonus üzrə təyin etdiyi ölçü vahididir və pula çevrilmə imkanı vardır.
- Kəşbəklərin növləri aşağıdakılardır:
  - Ödənişlər üzrə kəşbək – Alış–veriş (POS–retail və e–commerce üzrə) zamanı Kəşbək əməkhaqqı kartı ilə edilən ödənişlərə görə hesablanan kəşbək.
  - Kampaniya çərçivəsində təqdim olunan kəşbəklər – Bank və ya partnyorlar tərəfindən keçirilən kampaniyalar müddətində əlavə hesablanan kəşbəklər.
  - Ekstra kəşbəklər – Bankın partnyorlarından alış–veriş edildikdə Bank tərəfindən əlavə hesablanan kəşbəklər
  - Düzəliş kəşbəkləri – hər hansı düzəliş nəticəsində yaranan və ya itirilən kəşbəklər. Düzəliş kəşbəkləri kəşbək balansını artıra və ya azalda bilər.
  - Geri qaytarılan əməliyyatlar (reversal/refund) üzrə kəşbəklər – Müştəri  həyata keçirdiyi nağdsız əməliyyat məbləği daha sonra geri qaytaılarsa, qazandığı ödəniş üzrə kəşbək miqdarında balansından vəsait tutulur.

Bank tərəfindən aşkar olunan dələduzluq əməliyyatları üzrə hesablanan kəşbəklər birtərəfli qaydada ləğv edilə bilər və Bankın qərarı ilə Müştəri ilə münasibətlər dayandırıla bilər. Kəşbəklərin texniki səbəbdən səhv hesablanması aşkar olunarsa Bank tərəfindən düzəlişlər aparıla bilər və ya Müştəri Bankın Fərdi Müştərilərə Dəstək qrupuna müraciət edərək hesablanmış kəşbəklərin yenidən hesablanmasını tələb edə bilər.

- MCC kodu – 4 rəqəmdən ibarətdir, satış məntəqəsinin fəaliyyət növündən asılı olaraq Beynəlxalq Ödəniş Sistemləri tərəfindən ödəniş növünün seqmentini müəyyən edən kod.
- Partnyor – Kart istifadəçilərinə potensial olaraq mal, iş və ya xidmət təqdim edən və Məhsul çərçivəsində Bankla əməkdaşlıq edən tərəf.

## 3. Müraciət və istifadə qaydaları

3.1 Kəşbək əməkhaqqı kartlarının sifarişi Bankın mövcud prosedurlarına əsasən həyata keçirilə bilər.
3.2 Kəşbək üzrə məlumatlar və şərtlər www. pashabank.az səhifəsində yerləşdirilib.
3.3 Bank tərəfindən məhsul üzrə yeniliklər barədə məlumat mütəmadi olaraq müxtəlif kanallar vasitəsilə (mobil tətbiqetmə, SMS, email, vebsayt, sosial şəbəkə və s.) Müştəriyə ötürülür.

## 4. Kəşbəklərin hesablanması və istifadə olunması qaydaları

4.1 Müştəri öz kəşbək balansını aşağıda göstərilən üsullarla izləyə bilər:

1. SMS-məlumatlandırılma xidməti vasitəsilə - Əməkhaqqı məhsul pasportunda gösətrilən şərtlərlə SMS-məlumatlandırılma xidmətinə qoşulmaqla hər əməliyyat üzrə avtomatik qaydada sms vasitəsilə alınaraq
2. Bankın Fərdi Müştərilərə Dəstək qrupuna müraciət edərək
3. Bankın Mobil Əlavəsi üzərindən – Əməliyyatların tarixçəsindən və ya hesab üzrə əməliyyatlar üzrə mail vasitəsi ilə göndərilən hesabatdan

4.2 Hesablanmış kəşbəklər müştərilərin kart hesabına pul vəsaiti olaraq köçürülür.
4.3 Bank tərəfindən aşağıda qeyd olunan əməliyyat növləri üzrə kəşbək hesablanmır:

- Bank qarşısında öhdəliklərin icrası ilə bağlı ödənişlər
- Pul köçürmələri
- Nağdlaşdırma əməliyyatları (o cümlədən, pos-cash)
- Mədaxil əməliyyatları
- İnzibati xarakter daşıyan icbari ödənişlər (vergi, rüsum, cərimə və s.)

4.4 Məbləği 0.5 AZN və aşağı olan ödənişlərə kəşbək nəzərdə tutulmur. Məbləği 0.5 - 1 AZN arası olan ödənişlərə sabit olaraq 0.01 AZN məbləğində kəşbək nəzərdə tutulur.

Əlavə olaraq əməliyyatlar üzrə kəşbək hesablanmayan MCC kodlar Əlavə 1-də öz əksini tapmışdır.

## 5. Partnyorlar

5.1 Bank kəşbək loyallıq platformasında iştirak etmək istəyən Partnyorlarla müqavilə əsasında formalaşdırdığı ekstra kəşbək kəşbək bonusların toplanılması barədə ümumi məlumat Bankın www. pashabank.az səhifəsində "Kəşbək Partnyorlar" bölməsində əksini tapmışdır.
5.2 Bank və partnyorlar tərəfindən keçirilən müvafiq kampaniyalar çərçivəsində ekstra kəşbək bonuslarının faizi və hesablama şərtləri dəyişilə bilər. Bu barədə Bank Müştəriləri kampaniyanın müddəti ərzində mövcud kanallar vasitəsilə məlumatlandıracaqdır.

5.3 Partnyordan asılı olaraq hesablanan kəşbək fərqli tezlikdə kəşbək balansında əks oluna bilər (gündəlik, həftəlik, aylıq).
5.4 Partnyor şəbəkəsində edilən alış-verişlər üzrə hesablanan kəşbəklər və bütün digər hesablanan kəşbəklər Bank tərəfindən hesablanır.
5.5 Partnyor şəbəkəsində aparılan əməliyyat zamanı əlavə kəşbəklər hesablanmadığı halda Müştəri Banka müraciət etməlidir. Bank öz növbəsində məsələni araşdırıb hesablanmamış kəşbəklərin bərpa olunmasını təmin edir.

## 6. Müştərilərin məlumatlandırılması

6.1 Əməliyyatdan sonra kəşbəklərin hesablanması barədə məlumat müştəriyə SMS vasitəsilə onun bank sistemindəki nömrəsinə göndərilir. Hər-hansı əməliyyat geri qaytarılırsa (reversal əməliyyatı) həmin əməliyyat üzrə hesablanmış kəşbək bonusu sıfırlanır.
6.2 Bank tərəfindən Müştərinin məlumatlandırılması üçün digər mövcud kanallardan da (mobil tətbiqetmə, SMS, email, vebsayt, sosial şəbəkə və s.) istifadə oluna bilər.
6.3 Müştəri ona hesablanmış kəşbəklərin hesablanma qaydasının yoxlanılması üçün Bankın Fərdi Müştərilərə Dəstək qrupuna müraciət edərək bütün lazımi məlumatı əldə edə bilər.
6.4 Məhsul üzrə istifadə qaydalarında dəyişikliklər nəzərdə tutulduqda dəyişikliklər qüvvəyə minmədən 3 (üç) təqvim günü əvvəl Müştəriyə bu barədə məlumat ötürüləcəkdir (mobil tətbiqetmə, SMS, email, vebsayt, sosial şəbəkə və s.).

## 7. Digər şərtlər

7.1 Kartdan istifadə zamanı Müştəridə yarana biləcək əlavə (məs. konvertasiya haqqı və s.) xərclər Bank tərəfindən qarşılanmır.
7.2 Bank birtərəfli qaydada səbəbi bildirilmədən kart üçün daxil olan müraciətdən imtina edə bilər. Bu halda Müştəri tərəfindən ödənilmiş xidmət haqqı geri qaytarılacaqdır.
7.3 Şübhəli hallar aşkar olunduqda Bank kəşbəklərin hesablanmasından səbəbi bildirilmədən imtina edə bilər.
7.4 Bəzi hallarda Müştəridən daxil olan kartın yenilənməsi və/ya uzadılması sorğusuna səbəbi bildirilmədən Bank tərəfindən imtina verilə bilər.
7.5 Müqavilə müddəti ərzində Bank Müştərinin şəxsi məlumatlarını yenidən yoxlaması hüququna malikdir.
7.6 Bank Müştəri ilə bağlanan müqavilənin müddəti ərzində öz hesablamalarının təkrar yoxlanılılmasını həyata keçirə bilər və ona uyğun müvafiq düzəlişləri edə bilər.
7.7 Müştəri pashabank.az saytında dərc olunan cari təlimata əməl etmədikdə hesablanmış kəşbəklər birtərəfli qaydada ləğv edilə bilər və Bankın qərarı ilə Müştəri ilə münasibətlər dayandırıla bilər.
7.8 Hər hansı şübhəli hal yarandığı halda (kəşbəklərin oğurlanması və s.) onun araşdırılması üçün Müştəri Bankın Fərdi Müştərilərə Dəstək qrupuna müraciət edə bilər.

# Əlavə 1

*MCC kodlar üzrə kəşbəklərin hesablanmasını istisna edən ödənişlər*

| MCC Code | Definition |
| --- | --- |
| 4011 | Railroads – Freight |
| 4111 | Transportation – Suburban and Local Commuter Passenger, including Ferries |
| 4112 | Passenger Railways |
| 4131 | Bus Lines, Tour Buses |
| 4829 | Money Transfer |
| 4900 | Electric, Gas, Sanitary and Water Utilities |
| 5993 | Cigars, Tobacco |
| 6010 | Financial Institutions – Manual Cash Disbursements |
| 6011 | Financial Institutions - Automated Cash Disbursements |
| 6012 | Financial Institutions – Merchandise and Services |
| 6050 | Quasi Cash — Member Financial Institution |
| 6051 | MasterCard — Quasi Cash–Merchant; Visa — None Financial Institutions - foreign currency, money orders (not wire transfer), & Travelers Cheques |
| 6211 | Securities — Brokers and Dealers |
| 6529 | Quasi Cash — Remote Stored Value Load — Financial Institute |
| 6530 | Quasi Cash — Remote Stored Value Load — Merchant |
| 6531 | Payment Service Provider |
| 6532 | Payment Transaction — Member |
| 6533 | Payment Transaction — Merchant |
| 6536 | Money Transfers MasterCard MoneySend local |
| 6537 | Money Transfers MasterCard MoneySend international |
| 6538 | Money Transfers MasterCard MoneySend Funding |
| 6540 | POI Funding Transactions |
| 7273 | Adult Dating and Escort |
| 7800 | Government Owned Lottery (US Region only) |
| 7801 | Internet Gambling |
| 7802 | Government Licensed Horse / Dog Racing |
| 7841 | Video Entertainment Rental Stores (adult content) |
| 7995 | Betting, including Lottery Tickets, Casino Gaming Chips, Off-Track Betting, and Wagers at Race Tracks |
| 9211 | Court Costs, including Alimony and Child Support |
| 9222 | Fines |
| 9223 | Bail and Bond Payments |
| 9311 | Tax Payments |
| 9399 | Government Services (Not Elsewhere Classified) |
| 9402 | Postal Services – Government Only |
| 9406 | Government-owned Lottery (Specific Countries) |

| | |
|---|---|
| 9754 | Gambling—Horse Racing, Dog Racing |